Ədalət.- 2023.- 14 iyul.- S.4.

# ŞABRANDA RAMİZ RÖVŞƏN GECƏSİ

**Şabran rayonunun Pirəbədil kəndində meşənin içində yazıçıların, bəstəkar və rəssamların çox gözəl bir Yaradıcılıq evi istifadəyə verilib. İyulun 8-də axşam otelin rəhbərliyinin xahişi ilə bir qrup yazıçı və şairlərlə görüş keçirildi. Görüşü Yazıçılar İttifaqının katibi Rəşad Məcid açdı və aparıcılıq da elə Rəşad müəllimin üzərində qaldı. İlk söz Yazıçılar İttifaqının sədri Anar müəllimə verildi. Anar müəllim bu yaradıcılıq evinin Möhtərəm Prezident tərəfindən pandemiyaya baxmayaraq, 44 günlük müharibəyə baxmayaraq tez bir zamanda tikilib istifadəyə verildiyini məclisə**



**toplaşanların nəzərinə çatdırdı və bütün yaradıcı ziyalılar adından Cənab prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Görüşün ən maraqlı tərəfi o oldu ki, məclisə toplaşanların xahişi ilə Anar müəllim "Ay Laçın" mahnısını da ifa etdi.**



Anar müəllimdən sonra çıxış edən ədəbiyyatşünas, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə də Anar müəllimin ifasından vəcdə gələrək bir mahnı oxudu. Mahnıları pianoda görkəmli bəstəkar Vüqar Camalzadə müşayiət edirdi. Qəribəsi də o oldu ki, Vüqar Camalzadə aşağı oktavada ifa edirdi ki, birdən İntiqam Qasımzadənin səsi çatmaz. İntiqam müəllim də bildirdi ki, yuxarı oktavada çal. Hər iki ifa dinləyicilər tərəfindən hərarətlə qarşılandı.

Görüşdə Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli, görkəmli bəstəkar Gövhər Həsənzadə, yazıçı Aqil Abbas, tanınmış şair Ofeliya Babayeva, yazıçı-publisist İradə Tuncay çıxış edərək yaradıcılıq planlarından danışdılar.

Bəstəkarların adından isə Gövhər Həsənzadə və Vüqar Camalzadə çıxış etdilər.

Sonra söz Xalq şairi Ramiz Rövşənə verildi. Və gecə oldu Ramiz Rövşənin gecəsi. Şair bir neçə şeirini özünəməxsus bir səsdə və üslubda söylədi və hər şeiri hərarətli alqışlarla qarşılandı. Və hər şeirdən sonra da dinləyicilər yeni şeirlər tələb edirdi. Və bəzən də yerdən şairin şeirlərini əzbər deyirdilər.



Ümumiyyətlə, çox maraqlı bir görüş oldu və görüşdə iştirak edən ARB kanalının əməkdaşları da gecəni lentə aldılar.

Və Anarın təklifi ilə oteldə Azərbaycanın yazıçı və şairlərinin əsərlərindən ibarət kitabxananın yaradılması təşəbbüsü qaldırıldı və kitabxananın təməli qoyuldu.

**MEHRİBAN**